Sülh naminə məktub

Salam, əziz dostum.

Mən erməniyəm.

Məktubumu böyük fəxr və həyəcanla yazıram, çünki bilirəm ki, məhz sən oxuyacaqsan - sən ki, eyni səma altında yaşayan, fəqət fərqli dünyagörüşü olan qonşu Azərbaycandakı mənim yaşıdımsan. Mən Tatev. Ermənistanda, səndən o qədər də uzaqda olmayan lakin düşüncələrlə və dünyagörüşü ilə fərqli qütbdə yerləşən bir ölkədə yaşayıram. İllər boyunca yubadılan münaqişə iki ölkəmiz arasında düşmənçilik anlayışını formalaşdırıb, Qarabağ və Azərbaycan kəlmələri müharibə sözünə anonimə çevirib.

Mən və sən, valideynlərimiz, qohumlarımız, dostlarımız yaratmaq, bir birini sevmək, bir-birimizə təbbəsümlə qarşılamaq və dünyada əmin-amanlıq şəraitində yaşamaq üçün dünyaya göz açmışıq.

Bəs niyə biz daim savaşırıq? Bəlkə ona görə ki bu torpaqlar bizim ya da sizindir, ya da başqa səbəblər var. Lakin bir şey çox aydındır – sülh üçün insanlardan daha çox mərdlik tələb olunur nəinki müharibə üçün. İnanıram ki, bir gün xalqlarımız bir-biriylə takcə sənədlər vasitəsiylə deyil həm də öz düşüncələri, ideları ilə sülh haqqında fikir mübadiləsi aparacaqlar. Deyirlər əvvələrdə ermənilər və azərbaycanlılar qonşu-qonşuluqda yaşayıb istənilən məsələdə bir birinə yardım göstəriblər. Babam və nənəm öz azərbaycanlı dostları, rəfiqələri haqqında çox danışırdılar. Onlar danışırdılar ki, hər il Naftalan şəhərinə gedib istirahət edirdilər. Orda azərbaycanlılarla ünsiyyət qururdular. O qədər yaxın əlaqələri var idi ki, onlardan bir neçəsini bibimin toyuna dəvət etmişdilər və hətta bizim evimizdə gecələyiblər. Onlar bütün bunları rəğbət və təbəssümlə danışırdlar.

Nənələrimdən biri də Azərbaycanın Kirovabad (Gəncə) şəhərində anadan olmuşdur. Onun bütün xatirələri uşaqlıq illəri bu şəhərlə orda yaşayan insanlarla bağlıdır. Deyir ki, azərbaycanlılarla birgə yaşayırdılar, çörək kəsib, oynayıb məktəbə gedirdilər, bir sözlə bir ailə kimi idilər. Nənəmin qardaşı hələ orda (Azərbaycanda) yaşayan dostları ilə əlaqə saxlamaqda davam edir. Öz uşaqlıq şəhərinə qayıda bilməməsi fikri ilə öyrəşmək nənəm üçün çox çətindir. Çünki Ermənistan və Azərbaycan arasında qapalı dəmir pərdələri asılmışdır.

Mən isə Azərbaycanda heç vaxt olmamışam, heç vaxt azərbaycanlı görməmişəm, onlarla heç danlşmamışam. Mən yalniz millətin, ölkənin, mədəniyyətinizin haqqında eşitmişəm. Lakin 3 il əvvə Qarabağa getmək iki gün qalmaq və ən maraqlısı əvvəllərə azərbaycanlıya aid olan evdə yaşamağa imkanım olmuşdu. Həmin evdə artıq azərbaycanlılar yaşamırdılar, lakin onların qonşuları öz sevimli keçmiç qonşuları haqqında həmişə bəhs edirdilər. Həmin azərbaycanlılar öz evini hər şeyini qoyub tərk etməyə məcbur qalmışdılar. Bilirsən qorxu,

nifrət yox idi, erməni və azərbaycan evləri arasında heç bir fərq yox idi. İki gün mən həmin adi evdə qaldım, lakin sonra anladım ki bu ev adi ola bilməzdi, çüni o evin divarları, baxçası hasarları  ermənilərlə azərbaycanlılar birqə yaratmışlar.

Ermənistanda yaxud düyanan  isənilən ölkəsində erməniyə rastlaşsan və ondan soruşasan ki ən çox nə istəyirsən deyəcək ki sərhədlərimizdə və əsgərlərimiz üçün sülh olsun.

Ermənistanda erməni əsgərinin  şərəfinə sağlıq içəndə sərhəddə dayanan sənin qardaşlarını da unutmurlar, sizin əsgərlərinizə  da igitlik və əmin-amanlıq azrulayırlar.

Mənim əziz dostum, ümidvaram ki. bir gün ermənilərlə azərbaycanlılar mövcud stereotipleri keçib sevgi, həmirəylik mühitində dost xalqlar kimi yaşayacaqlar.

Biz anlamalıyıq ki, millətlərimiz eyni cür fikirləşə bilməzlər. Biz eyni həqiqətə  fərqli prizmalardan baxırıq, bəlkə də eyni prizmadan baxa bilməyəcəyik, lakin bir birimizi həzm edib sülh şəraitdə yaşamalıyıq. Ermənilər və azərbaycanlılar bir birini bağışlamaq üçün iradə göstərməlidir. İllər boyunca xalqlarımız içində formalaşan nifrət duyğusunu biz sevgi və həmirəyliyə çevirməliyik.

Bilirəm sülhü nə tebliğ edirlər, nə məcbur edirlər, nə yalvarırlar nə də tələb edirlər sülhü hər kəs özü yaradır ya da öz daxilində sülhü yenidən tapır. Öz daxilində əmin-amanlıq daşıyan insana və millətə yalnız slüh gözləyir.

Əziz tanış eyni zamanda tanış olmayan dost xalqlarımıza şüurlu əmin-amanlıq arzulayıram.

Məktubumu oxuduğuna görə minnətdaram.

Hörmətlə Ermənistandan

Tatev